

■ Məryəm ZƏBƏRDƏST

**1984-cü ildə Təbrizdə doğulub. Klinik Psixologiya üzrə magistr təhsili alıb.**

**Reabilitasiya Mərkəzinin Sahibi və müdiridir. 2003-cü ildən şeirlər yazır.**

## ŞEİR YIĞIRAM SEVGİMİZİN KÜÇƏ-BACASINDAN

sən gəldiyində mahnımız çalınacaq,
kəlmələr döşənəcək ayağına
notlarda bəslənəcək sevgimiz
sürməli qız belə oynayacaq mahnımıza
qurban kəsiləcək sənə bütün şairlərin
qızıl saçlı qəzəlləri, dördlükləri, sərbəstləri belə
qapı qonşuya pay göndərəcəyəm gülüşlərimizdən
naxış-naxış xalçalar toxunacaq
əllərimizin öpüşən saniyələrindən,
ayaqlarına döşəyəcəyəm südəmər şeirlərimi
sənə yalvaracaq bütün parçalanmış xatirələrimiz
mən şeir yığıram sevgimizin küçə-bacasından
dön artıq,
dön artıq
saniyələrdə dayandır sənsizlik teatrında
saçlarımın ağ boyaya bürünmək ssenarisini

* * *

planlar qarışmış beynimdə
unutmağa çalışdığım anlar
daha çox bələndim bu çarəsiz sevgiyə
arxamca qəh-qəhəylə dediyin sözlər,
barmağımdakı nişan üzüyüm
mən kirpiklərimdən sevgi yağdırarkən,
sən nifrətli sözləri kasasıyla
səpdin ardımdan ayrılırkən
biz qarlı dağlardan qol-qola keçdik
arxayın ol qarda izlərim qalacaqdır
çaylara axsa, bir gün izim o dağlardan
yəqin bil o suda əl-üzünü yuyanlar
sevdalı qızlar gəlinlər olar
yaylar, qışlar ötər dərələrdə, ormanlarda
dönə-dönə həyat doğar xırda incə yaraqlarda
dalğa qucağında görərsən bir xırdaca beşik,
onda bilərsən yaralı durnan yuvasız qalıb
səni səndən alıb götürməyim gəlir,
yalan da olsa bu sözü səndən eşitməyi arzulayıram:
- gözlərin nə dərin bir qəfəsdir, sevgilim,
mən bu qəfəsdə təkcə quş olmağa həvəslənirəm.
Kağız götürəndə sənə şeir yazam
sətirlərdə barmaqlarımdan Nüsrət axır:
“səsin həman səsdir baxışın ögey
gedirsən səsin də yad olsun barı”.

## SAÇLARIM MUSİQİ ALƏTLƏRİ

Əllərini daraqla saçlarıma
Hör tumarlaya-tumarlaya
Saç mahnılarının ən nostaljisini yaşat barmaqlarınla
Bütün notlarını sətir-sətir məşq elə,
Saçlarımda dayan, sevgi tanrısı,
Tələsmə, saçlarımda dayan
Bir dəqiqə yox, bir il yox
Saçlarımla son çıxış edən sevgi operalarını məşq et -
sevgi orkestr salonudur gözlərin,
Və mənlə yaşanan sevgi orkestr rəhbəridir,
bütün keçmiş sevgi simfoniyalarına.
Saçlarım bütün musiqi alətləridir, sevgilim,
Ən uzun teli də qopuzundur -
Saraları, Nigarları çal!
Bəlkə tarındır saçlarım.
İlk məhəbbəti tellərimdə ifalandır,
Bir tel qarası, bir tel ağı var,
bu saçların
tam bir pianodur.
Otur bir az mənə Romeo-Cülyetta yaşat,
Saçlarımda dayan, sevgilim,
Tel-tel izn ver illər keçdiyində
üzü ağ olsun saçlarımın.
Bu sevgiyə dayan saçlarımda, sevgilim,
Dəqiqələrdə yox, saatlarda yox,
illərdə dayan,
Qoy sevgimiz saçlarımla birlikdə qocalsın, sevgilim!

## SƏN, MƏN, DƏLİXANA

Burası yeni bir qala,
Sənlə mənəm,
Bir az da xatirə.
Bahar payızın bağrında çatlayan kimi
Qəbir qazırlar deyəsən xatirələrimizə.
Burası yeni odam,
Sənlə mənəm,
Bir də dəlixana.

## ƏLİFBA

Biz əlifbanı
sevgi məktublarını yazmaqçün öyrənmişdik,
və rəqəmləri
Sevgi naqqışlısında1 bir-birimizə çatdığımız günləri
yaxınlaşdırmaq həvəsilə,
Hey, məndən şair törədən kişi,
Nədən sətirlərim ayrılıq şeirləri doğur?!
Və rəqəmlər sənsizliyimin
neçə milyonluq saniyələrin beynimə dolayır?!
Hey, səninləyəm!
Sevgi mahnılarını ana dilimdə ürəyimə öyrədən kişi!
Bir də əlifbanı öyrənməyim gəlir...

1-balaca uşaqların yerdə cızıq çəkib oynadığı oyuna işarə (ayaq-cızıq da deyirlər)

* * *

Həyətimizə qondular quşlar,
Daşladılar qonşularımız
Sənlə mənim sevgimiz kimi
Parçalanıb ayrıldılar.
Uçub gedəndə baxıb özümə dedim:
Fəsilsiz quşlara[1] daş atılarmış demək,
Saxta məhəbbət olan sevgilər kimi...

*1-köçəri olmayan quşlar nəzərdə tutulur*

## SƏNİ SEVİRƏM SÖYLƏ

Gəl otur
Bir şeir dəmləyim,
İki stəkan şeir içək,
Çoxdan qaynayır kəlmələrim
Sən bir səni sevirəm söylə.
İlk bahar kimi çiçəklənsin ömrümün yaz çağında
qış havalarına bürünmüş saçlarım...

**Təqdim etdi:**
**İlham Qəhrəman**



kaspi.-2019.-26 yanvar.-S.21.